

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 192 (23.604)

6 noyabr 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib. Dövlətimizin başçısı müsahibəsində bildirib ki, cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən, demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik.

Vurğulanıb ki, Ermənistan humanitar məqsədlərlə elan olunmuş atəşkəslərdən resursları səfərbər etmək və yeni hücuma keçmək üçün istifadə etmək istədi. Qeyd olunub ki, Minsk qrupu BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olaraq özlərinin qəbul etdikləri BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasında israr etmədilər.

Azərbaycan Respublikasının Prezidenti müsahibəsində Azərbaycan tərəfindən hər hansı bir əcnəbi döyüşçünün vuruşması ilə bağlı heç bir sübut olmadığını, Türkiyənin hərbi dəstək göstərmədiyini də bildirib.

## Naxçıvanda yeni dövrün çağırışları üçün mühüm addımlar atılır

### *Ötən il ölkə üzrə Günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 88,7 faizi muxtar respublikanın payına düşüb*



***Bu yaxınlarda Beynəlxalq Enerji Agentliyinin "Dünya enerji icmalı 2020" hesabatı açıqlandı. Hesabatda bildirilir ki, qlobal enerji tələbi 2030-cu ilə qədər 20 faiz artacaq ki, bu artımın 80 faizini bərpa olunan enerji qaynaqları təkbaşına ödəyə biləcək. Günəş enerjisi isə bu sektordakı böyümənin mərkəzində olacaq.***

Hesabatda qeyd olunur ki, bərpa olunan enerji mənbələri qarşıdakı 10 ildə elektrik enerjisinə olan qlobal tələbatın 50 faizini təmin edəcək. Enerji tələbatının ödənilməsində hidroelektrik enerjisi ən böyük paya sahib olacaq, Günəş isə ən çox artım göstərən enerji mənbəyi olacaq. Külək və ofşor külək stansiyaları növbəti yerdə qərarlaşacaq. Digər tərəfdən, bərpa olunan mənbələrdə istehsal olunan elektrik enerjisinin sağlam şəkildə şəbəkəyə qoşulması üçün elektrik şəbəkələrinə əhəmiyyətli investisiyalar tələb ediləcək. Qlobal emissiyalar 2008-2009-cu illərdəki iqtisadi böhrandan sonra olduğundan daha yavaş artacaq. Lakin ölkələrin epidemiyadan sonrakı iqtisadi artım planları emissiyaların gələcəyində mühüm rol oynayacaq. Ən əsası isə ölkələr təmiz enerji sərmayələrini bir az daha sürətləndirərsə, Günəş və külək enerjisində daha çox artımın şahidi ola bilərik. Bu da iqlim dəyişikliyi ilə mübarizədə mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, dünyada təbii enerji mənbələri ehtiyatının getdikcə azalması, alternativ və bərpa olunan enerji mənbələrinə marağı artırmaqdadır ki, bu da gələcək perspektivləri üçün düşünülmüş konsepsiyaları olan ölkələri indidən müəyyən addımlar atmağa sövq edir. Azərbaycan da məhz bu cür ölkələrdəndir. Baxmayaraq ki, ölkəmiz mühüm enerji ehtiyatları ilə zəngindir, bərpa olunan enerji mənbələrindən istifadə bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi iqtisadi siyasətin təməlində dayanır. Xüsusilə son illərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyinin təmin edilməsi və əlavə (ixrac məqsədli) enerji potensialının yaradılması diqqət mərkəzində saxlanılır. Müstəqilliyimizin bərpasından sonrakı dövrə nəzər salsaq, görərik ki, ötən əsrin sonlarında enerji blokadasına salınan muxtar respublikada reallaşdırılan tədbirlər nəticəsində 1992-ci ildə 60 meqavat gücündə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası, 2006-cı ildə 4,5 meqavat gücündə Heydər Əliyev



Su Anbarı üzərindəki elektrik stansiyası, həmin ildə 87 meqavat gücündə Naxçıvan Modul Elektrik Stansiyası, 2010-cu ildə 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, 2014-cü ildə 20,5 meqavat gücündə "Arpaçay-1" Su Elektrik Stansiyası, həmin ildə 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik Stansiyası, 2015-ci ildə 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası (2017-ci ildə stansiyanın gücü daha 2 meqavat artırılaraq ümumi qoyuluş gücü 22 meqavata çatdırılmışdır), 2019-cu ildə 2 meqavat gücündə Kəngərli Günəş Elektrik Stansiyası və nəhayət, 2020-ci ildə 3 meqavat gücündə Qabıllı Günəş Elektrik Stansiyası tikilib istifadəyə verilib. Konkret nəticələrə gəldikdə, bu gün muxtar respublikada istismar olunan 10 elektrik stansiyasının ümumi qoyuluş gücü 244,4 meqavatdır. Bunlardan da ümumi qoyuluş gücü 97,4 meqavat olan 8 stansiya – 5 su və 3 Günəş elektrik stansiyası alternativ və bərpa olunan enerji mənbələri hesabına fəaliyyət göstərir. Hazırda tikintisi davam etdirilən 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasında və 15,6 meqavat gücündə Tivi Su Elektrik Stansiyasında işlər yekunlaşdıqdan sonra bərpa olunan enerji mənbələri hesabına fəaliyyət göstərən stansiyaların ümumi qoyuluş gücü 149 meqavat təşkil edəcəkdir ki, bu da muxtar respublikada enerji istehlakının 100 faizinin bu mənbələr hesabına ödənilməsinə imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2019-cu ildə muxtar respublikada 418 milyon 385 min 251 kilovat-saat elektrik enerjisi istehsal olunub ki, bunun da 186 milyon 695 min 982 kilovat-saatı və ya 44,6 faizi istilik elektrik stansiyalarında, 194 milyon 216 min 469 kilovat-saatı və ya 46,4 faizi su elektrik stansiyalarında, 37 milyon 472 min 800 kilovat-saatı və ya 9 faizi isə Günəş elektrik stansiyalarında istehsal edilib. Alternativ və bərpa olunan elektrik enerjisi istehsalı ümumi istehsalın 55,4 faizini təşkil edib. Hazırda dünya üzrə yalnız bir neçə ölkənin enerji sərfində bərpa olunan enerjidən istifadə 50 faizi ötür. Həmçinin bunu da vurğulayaq ki, ötən ildə ölkə üzrə Günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 88,7 faizi muxtar respublikanın payına düşüb. Yeri gəlmişkən, bu, son hədd deyil. Şərur rayonu ərazisində də 5 meqavatlıq Günəş elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Bütün bunlar isə bir daha onu göstərir ki, muxtar respublikada bərpa olunan enerji mənbələri hesabına yeni elektrik stansiyalarının tikintisi gələcəkdə də davam etdiriləcək. Və Naxçıvan Muxtar Respublikası yaxın gələcəkdə qlobal enerji bazarının liderinə çevriləcək Günəş enerjisi istehsalının artımı üçün artıq indidən böyük addımlar atılır.

✍ **Səbuhi HƏSƏNOV**

## "Qarabağ Azərbaycandır!" adlı tədbirlər keçirilib

*AMEA Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu və Elmi Kitabxananın birgə təşkilatçılığı ilə "Qarabağ Azərbaycandır!" mövzusunda elmi konfrans keçirilib.*

Tədbiri institutun direktoru, AMEA-nın müxbir üzvi Fəxrəddin Səfərli giriş sözü ilə açaraq Qarabağ tarixindən və bu tarixi həqiqətlərin dünyaya çatdırılması istiqamətində həyata keçirilən ardıcıl tədbirlərdən danışıb. Bildirib ki, 200 ildən bəri Azərbaycan xalqına qarşı təcavüzkar və soyqırımı siyasəti yeridən ermənilər XX yüzilliyin sonlarında havadarlarının köməyi ilə Dağlıq Qarabağı və ətraf rayonları işğal etdilər. Bununla kifayətlənməyən işğalçılar son illər Azərbaycandan yeni torpaqlar qoparmaq üçün tez-tez təxribatlar törətməyə başladılar. Ancaq nəzərdən qaçırdılar ki, Azərbaycan dövləti 20-25 il bundan əvvəlki dövlət deyildir, ordumuz istənilən vaxt ərazi bütövlüyümüzü bərpa etmək qüdrətindədir. O, bildirib ki, sentyabrın 27-dən etibarən təzavüzkar erməni ordusunun Azərbaycanın yaşayış məntəqələrini və mülki şəxsləri atəşə tutmasından sonra Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatlarına başlanıldı, torpaqlarımızın azad olunması uğrunda mübarizəyə qalxan Azərbaycan Ordusu sarsıdıcı zərbələr vuraraq düşməni ağır məğlubiyyətlərə uğratdı.

Fəxrəddin Səfərli vurğulayıb ki, Vətənimizin ərazi bütövlüyü uğrunda gedən haqq savaşında həmrəy olan xalqımız Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında yumruq kimi birləşərək həm döyüş meydanında, həm də informasiya müharibəsində bu gün düşmənə qalib gəlir.

Konfransda İnstitutun Etnoqrafiya şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanovanın, Qafqaz tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Emin Şıxəliyevin və Elmi Kitabxananın direktoru Sahab Əliyevanın məruzələri dinlənilib, virtual sərgi nümayiş olunub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

* * *

*"Naxçıvan" Universitetində Dövlət Bayrağı Gününə həsr olunmuş "Qarabağ Azərbaycandır!" adlı tədbir keçirilib.*



Universitet şəhərciyində, açıq havada keçirilən tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra səhnəyə müqəddəs üçrəngli bayrağımız gətirilib.

Tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açaraq bildirib ki, üçrəngli, aypara və səkkizguşəli ulduz təsviri olan milli bayrağımız 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılaraq ölkəmizin səmasında dalğalanıb. Yalnız 70 il sonra 1990-cı il noyabr ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə keçirilən sessiyasında Azərbaycanın milli dövlət dirçəlişi prosesinin həyata keçirilməsi məsələsi geniş müzakirə olunub, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ucaldılmış üçrəngli bayrağın bərpası, onun Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunması barədə tarixi qərar verilib. Rektor diqqətə çatdırıb ki, ulu öndərin milli mənafelərə əsaslanan siyasəti bütün sahələrdə uğurla davam etdirilir. Ölkə başçısı 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması, 2009-cu ilin noyabrında isə Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında sərəncamlar imzalayıb. 2010-cu il sentyabrın 1-də isə Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimi olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" Sərəncamına əsasən Naxçıvan şəhərində də Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılıb.

Rektor vurğulayıb ki, bu gün hər bir Azərbaycan vətəndaşının qəlbi Vətən eşqi ilə döyünür. Şanlı Azərbaycan Ordusu Ali Baş Komandanımızın rəhbərliyi ilə işğal olunmuş tarixi, əzəli torpaqlarımızı düşmən tapdağından azad edir və üçrəngli bayrağımızı orada dalğalandırır.

Sonra tədbirin bədii hissəsi olub, səmaya üzərində Azərbaycan və Türkiyə bayraqları olan hava şarları buraxılıb.

**Seyfur HACIMURADOV**



*Dövlətlərin, xalqların və millətlərin suverenlik rəmzlərindən ən əsası olan bayraq, sadəcə, bir ipək parçası deyil, bir ölkənin azadlığını və müstəqilliyini təmsil etməsi baxımından çox mühüm məna kəsb edir. Bayraqlarda hər bir xalqın milli, dini, ideoloji simvolları öz əksini tapır. Dövlət rəmzi kimi bayrağa hörmət göstərilməsi hər bir ölkə vətəndaşının vətəndaşlıq borcudur. Elə buna görə də, dövlətin əsgəri ölkənin ərazi bütövlüyünün və suverenliyinin qorunması ilə bağlı müqəddəs vəzifəni öz öhdəsinə götürərkən bayrağa and içir.*

# Azərbaycan bayrağı milli qürur rəmzimizdir

Azərbaycan bayrağı dərin tarixi inkişaf yolu keçmişdir. Müstəqil Azərbaycanın ilk bayrağı 1918-ci ildə Gəncə şəhərində 24 iyun 1918-ci il tarixində qırmızı rəngli ay və səkkizguşəli ulduzdan ibarət olaraq qəbul olunmuşdu və bu bayrağın müvəqqəti olmağı qeyd edilmişdi. Daha sonra 1918-ci il noyabrın 9-da isə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Bakıda keçirilən iclasında Fətəli xan Xoyski milli bayraq haqqında məruzə ilə çıxış etmişdir. Müzakirələrdən sonra mavi, qırmızı və yaşıl rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq Dövlət Bayrağı kimi qəbul edilmişdir. Amma təəssüflər olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, bu bayrağımız zirvələrdə uzun müddət dalğalanmadı. Bakıda Dövlət Bayrağı Meydanının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin dövrdən danışarkən demişdir: ***"Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır. Məhz Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir".***

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımız 70 il xalqımızın qəlbində yaşamışdır. Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilmişdir.

Üçrəngli bayrağımızda türkçülük, müasirlik, islamlaşmaq ideyaları öz əksini tapmışdır. Bayrağımız həm də Azərbaycan dövlətinin öz inanclarına, öz dəyərlərinə sadiqliyini özündə əks etdirir. Bayrağımızın simvol və təsvirləri əsl tarixi – fəlsəfi sistemdir. Bayrağımızın üzərindəki rənglərin, aypara və ulduzun özündə hansı mənaları gizlətdiyi, tarixin hansı dərinliklərinə gedib çıxdığı bizim üçün maraqlıdır. Belə ki, səkkizguşəli ulduzun tarixi izahı barədə müxtəlif fərziyyələr mövcuddur. Onlardan biri ondan ibarətdir ki, qədim türk mifologiyasına görə ulduzlar səkkiz guşə kimi düzüləndə, həmin xalqın taleyində xoşbəxt hadisə baş verib. Belə bir ehtimal da irəli sürülür ki, ulduzdakı səkkizguşəlilik Xalq Cümhuriyyətinin dövlət prinsipləri müəyyən edilərkən 8 prinsip – türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabərlik, Azərbaycançılıq və mədəniyyətlilik ilə əlaqədardır. Səkkizguşəli ulduzun əbədilik, sonsuzluq, davamlılıq rəmzi də olması bir sıra ədəbiyyatlarda qeyd olunur. Bayrağımızın üzərində əks olunmuş aypara yeni yaranmış müsəlman ölkə mənasını bildirir. Aypara və ulduz istər milli, istərsə də mənəvi baxımdan Azərbaycan xalqının qədim maraqlarının ifadəsi və simvoludur. Bayrağın üzərindəki rənglərin mənasını dahi Azərbaycan şairi Cəfər Cabbarlı özünün "Sevdiyim" şeirində daha poetik şəkildə ifadə etmişdir:

*Bu göy boya, Göy Moğoldan qalmış*
*bir türk nişanı,*
*– Bir türk oğlu olmalı!*
*Yaşıl boya islamlığın sarsılmayan imanı,*
*– Ürəklərə dolmalı!*
*Şu al boya azadlığın, təcəddüdün fərmanı,*
*— Mədəniyyət bulmalı!*

"Bayraqlarımız bayraq edən üstündəki qandır", – deyən böyük türk şairi Tofiq Fikrət bayrağın necə müqəddəs və dəyərli olduğunu ən yaxşı formada izah etmişdir. Müstəqil ölkədə yaşamağımızın səbəbkarı olan şəhidlərimiz bu bayrağın dalğalanması üçün canlarından keçmişlər. Biz də bu bayrağın daim torpaqlarımız üzərində dalğalanması üçün böyük ehtiram göstərməli və onu göz bəbəyimiz kimi qorumalıyıq. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***"Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmasını istəyirsə, kim Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında birləşməlidir".***

Bu gün ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. Biz fəxr hissi ilə deyə bilərik ki, Azərbaycan bayrağı dünyanın əsas beynəlxalq təşkilatlarının qarşısında, ən ali kürsülərdə, hər zaman zirvələrdə dalğalanır. Dövlət Bayrağı Meydanının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".***

Bu gün də tariximizin ən şanlı səhifələri üçrəngli bayrağımızla bəzənir. Müzəffər Ordumuz tərəfindən uzun illər sonra işğaldan azad olunmuş torpaqlarımızda bayrağımız yüksəldilir. Uğrunda can verdiyimiz şanlı bayrağımız bu gün Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı səmasında dalğalanır.

*Bayrağımız bizim qürur mənbəyimiz, and yerimiz, iman yerimizdir. Onun daim ucalarda dalğalanması üçün bütün səyimizlə çalışmalı, müqəddəsliyinin keşiyində qürurla dayanmalıyıq.*

**Əziz QASIMOV**
***Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının müəllimi***

***Bir aydan artıqdır ki, ata-baba yurdumuzu, 30 ildir, düşmən tapdağında öz övladlarının yolunu gözləyən torpaqlarımızı mənfurlardan təmizləyirik. Dünya dövlətləri bu gün Azərbaycan xalqının, Azərbaycan Ordusunun nəyə qadir olduğunu bir daha görürlər. Azərbaycan tərəfindən qeyri-millətlərdən olan nümayəndələrin səngərlərimizdə döyüşdüyü kimi çirkin iftiralara əl atan düşmən öz qarayaxmasından əl çəkmir. Düşmənin qəbul edə bilmədiyi reallıq isə əli silah tutan hər bir azərbaycanlının cəbhəyə yollanmaq üçün hazır dayanmasıdır. Elə bu mövzu ətrafında həmsöhbətimiz Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə dövlət Xidmətinin baş zabiti, kapitan Asim Babayevdir.***

# Qələbə bizimdir

***– Asim müəllim, xalqımızın apardığı haqq savaşı barədə nə deyə bilərsiniz?***

– Bu günü çoxdan gözləyirdik. 1992-ci ildə ermənilər öz havadarlarının gücü ilə musiqi beşiyi hesab etdiyimiz Qarabağı işğal edərək azərbaycanlılardan ibarət olan yerli sakinləri öz yaşayış məskənlərindən çıxarmağa nail oldular.

Müstəqilliyini yenicə quran Azərbaycan dövlətinin nizami ordusunun olmadığını bilərəkdən bunu etdilər. Bir də həmin dövrdə yeni qurulan dövlət idarəçiliyində baş verən çəkişmələr, kürsü davası, səriştəsiz rəhbərliyin yürütdüyü səhv siyasət buna rəvac verdi. Xalqın qeyrətli oğulları birləşərək dəstələr halında Vətənin müdafiəsinə qalxdılar. Bir mərkəzdən idarə olunmadığı üçün bu dəstələr də çox vaxt uğursuzluqla qarşılaşır, itkilər verərək geri çəkilirdilər. 1993-cü ildə hakimiyyətə gələn ümummilli liderimiz Heydər Əliyevin qətiyyətli və düzgün siyasəti nəticəsində həmin dəstələr ordu halında birləşərək Horadiz əməliyyatında ermənilərə sarsıdıcı zərbələr vurdular. Bu zərbədən qorxuya düşən erməni atəşkəs müqaviləsi bağlamağa məcbur oldu. Bundan sonra aparılan danışıqlar, ATƏT-in Minsk qrupunun apardığı səmərəsiz işlər heç bir əhəmiyyət vermədi. Bir çox dövlət başçıları "Qarabağ" kartından istifadə edərək, erməni lobbisinə dəstək olub hakimiyyətə gəldilər. Onlarda arxayınlıq yarandı ki, Azərbaycan geri addım atıb məğlubiyyətlə razılaşacaq. Lakin gözlədikləri kimi olmadı. Otuz il gözlədik, səbir etdik. İnkişafa nail olduqca mükəmməl ordu yaratdıq. Əsgəri Vətən üçün qanından, canından hər an keçməyə hazır olan, hərbi biliklərə dərindən sahib olan, müasir silahlarla təchiz olunan şanlı bir ordu...

Azərbaycan dövləti inkişaf etdikcə, qüdrətləndikcə bəzi dövlətlər heç də bunu həzm edə bilmədilər. Bakı-Tiblisi-Ceyhan və TANAP boru xətlərinin çəkilişi Bakı-Tiblisi-Qars dəmir yolu xəttinin işlək hala gətirilməsi, qeyri-neft sənayesinin inkişafı belə, dövlət başçılarının yuxusunu ərşə çəkdi. Türkiyə ilə Azərbaycanın dostluq və qardaşlıq münasibətləri onları daha da qıcıqlandırdı. Özləri qınlarına çəkilib, erməniləri Azərbaycan üzərinə qısqırtmağa başladılar. 2016-cı ildə ordumuz ermənıyə gücünü göstərə bildi. Cəbrayılda Cocuq Mərcanlı, 2018-ci ildə Naxçıvanda Günnüt kəndləri qüdrətli ordumuz sayəsində işğaldan azad olundu. Ermənilər, sanki bunu zarafat hesab etdilər. 2020-ci ilin iyul, avqust aylarında da hücuma cəhd göstərdilər. Ordumuzun rəşadətli və igid oğulları onların cavablarını həmişə olduğu kimi, yenə də layiqincə verə bildi.



27 sentyabr 2020-ci il tarixdə ermənilər bir daha müxtəlif istiqamətlərdən hücum edərək sərhədlərimizi pozub, kəndləri atəşə tutdular. Ordumuz müdafiə hücumuna keçərək, onlara sarsıdıcı zərbələr vurdu. Qısa zaman içərisində şanlı ordumuz işğalda olan torpaqlarımızın bir hissəsini – Cəbrayıl, Füzuli, Qubadlı şəhərlərini, bir çox kənd və qəsəbələrimizi özümüzə qaytardı. Bütünlükdə, Qarabağımızın azad olunmasına isə sayılı günlər qalır.

***– Doğrudur, Azərbaycan Ordusu bu gün tarix yazır. Lakin o tarixi yazarkən mənfur düşmənlərimizdən fərqli olaraq dinc əhaliyə, qadına, uşağa, qocaya, ümumiyyətlə, silahsız gördüyü düşmənə əl qaldırmır.***

– Bir neçə gün əvvəl hər birimiz mətbuatda yayımlanan bir hadisənin şahidi olduq. Torpaqlarımızı azad edən əsgərlərimiz, bir daxmada erməni qadını ilə rastlaşdılar. Lakin onu öldürmədilər. Qadın öldürməyi öz qeyrətlərinə sığışdırmadılar. Bax budur bizim əsgərlərin ermənidən fərqi.Vəhşilik xisləti ermənidədir, bizdə yox.

Çox təəssüflər olsun ki, düşmən humanizm prinsiplərini unudur. Döyüş meydanından kilometrlərlə aralıda yerləşən şəhərlərimizi atəşə tutur, dinc əhaliyə qarşı terror aktları törədir. Bununla xalqımızın ruhdan düşəcəyini zənn edən mənfurlar, bu terrorçuluqla daha da sərtləşdiyimizin, məğrurlaşdığımızın fərqinə varmır. Bir ay ərzində bir neçə dəfə humanitar atəşkəs rejimi elan olunsa da, kobud şəkildə atəşkəsi pozan Ermənistan silahlı qüvvələri Tərtər, Ağcabədi, Füzuli və başqa yaşayış məntəqələrimizi atəşə tutmaqdadır. Oktyabrın 4-də Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncənin, 28-də isə Bərdə şəhərinin "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tutulması onların terror qruplaşması olduğunu bütün dünyaya bir daha sübut etdi. Bütün bu terrorçuluğun qisasını ordumuz döyüş meydanında alır. Düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi texnikası məhv edilib və edilməkdədir.

***– Azərbaycan əsgəri öz əbədi və əzəli torpaqları, tarixi ədalətin bərpası uğrunda öz canlarından keçir.***

– Azərbaycan xalqı öz torpaqlarının azadlığı uğrunda tökülən qanlardan qorxmayan, əzmkar xalqdır. Bu gün əgər biz Vətən müharibəsinə qalxmışıqsa, şəhidimiz də olacaq. Vətən uğrunda canını qurban verənlərə şəhid deyilir. Bu gün şəhid olan qardaş-bacılarımızın dəfn mərasimləri çox yüksək səviyyədə keçirilir. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq şəhid adını almış və ya müvafiq hərbi hissənin arayışı ilə şəhid olması təsdiq edilmiş hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin xatirəsinə ehtiram əlaməti olaraq hərbi hissə komandiri şəhidin yas mərasimində hərbi hissə nümayəndələrinin iştirakını təmin edir, habelə hərbi hissələrdə xüsusi guşə yaradılır, şəhid olmuş hərbi qulluqçuların və toplanışa çağırılmış vəzifəlilərin şəkli və onlar haqqında müvafiq məlumat həmin guşədə əks etdirilir. Bu gün cəbhədə şəhid olanlara dövlətimizin diqqət və qayğısı çox böyükdür. Onların ailələri də hər zaman diqqət mərkəzində saxlanılır və problemləri dərhal aradan qaldırılır. Bu gün şəhid analarının "oğlum kürəyindən vurulsa, ona haqqımı halal etməzdim, düşmənin gözünə dik baxaraq ürəyindən vurulub", – deyərək başını qürurla dik tutması düşmənə ən layiqli cavabdır.

***– Asim müəllim, mənfur düşmənlərimiz ordumuzda qeyri-millətlərdən olan muzdluların döyüşməsi haqqında uydurmalarından da əl çəkmirlər...***

– Bu gün "Mənim addımım" partiyasının lideri, Ermənistanın baş naziri Paşinyan çaşbaş vəziyyətində, narahatçılıq içindədir. Addımını atmaq üçün yer axtarır, tapa bilmir. Heç Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı da ona addım atmaq üçün yol göstərə bilmir. Bu təşkilata üzv olan dövlətlər tərəfindən ermənilərə nə qədər dəstək göstərilsə də zəhmətləri hədər gedir. "Tikinti materialı" adı ilə göndərdikləri silah və texnikanı qorxaq erməni dığaları döyüş meydanında qoyaraq qaçırlar. Elə bu səbəbdəndir ki, əli hər yerdən üzülən ermənilər artıq qarayaxmalar yolu ilə dünya dövlətlərindən yardım almağa çalışırlar.

Dilimizdə bir deyim var: "Erməni qan gördü, qaçar". Qan görən kimi qaçan, döyüşməkdən imtina edən düşmən hərbçilərinin yerinə muzdlu döyüşçülər toplayır. Lakin bu muzdlular da Azərbaycanın şanlı Ordusunun taktik döyüşü qarşısında tab gətirə bilmir, gəldiklərinə belə, peşman olduqlarını özləri etiraf edirlər. Çıxılmaz, rəzil duruma düşən ermənilər ordumuzun rəşadət və gücünü kölgə altına salmaq üçün müxtəlif bəhanələr uyduraraq özlərinə və havadarlarına təsəlli verməyə çalışırlar. Guya ki, ordumuzda döyüşənlər türk əsgərləridir. Ağılsız və qərəzli dövlət başçıları bunu doğru saysa da, ağıllı, siyasətdə uğur qazanan dövlət başçıları bu cəfəng iftiralara inanmırlar. Bilirlər ki, on milyon sakini olan bir dövlətin iki milyondan da az sakini olan bir dövlətlə döyüş aparmağa özünün qüvvəsi, əsgəri və zabiti çatar. Ali Baş Komandan qismən səfərbərlik göstərişi verdiyi halda, Vətənin on minlərlə ehtiyatda olan gənci, ahılı səfərbər olub, çağırış məntəqələrinə üz tutdular. Bu, xalqın orduya, dövlətə, Ali Baş Komandana olan inam və sevgisindən irəli gəlir. Erməni quldurları bilməlidirlər ki:

*Mənəm, mənəm deyib çox qılınc taxan*
*Torpaqlar altında yatar bir zaman.*

Sonda bildirmək istərdim ki, yenilməz, qüdrətli Ordumuz torpaqlarımızı mütləq azad edəcək. Xalq-ordu birliyi bu inamı verir. Hər kəs orduya inanır, ona güvənir. Bilir ki, ön cəbhədə Vətənini, torpağını canından artıq sevən igid, qorxmaz, qəhrəman oğullarımız var. Bu oğullar düşmənə qan udduracaq, onları Vətən torpağından qovacaq və xalqına qələbə sevinci yaşadacaq. Düşmən bilməlidir ki, bu torpaqlar Azərbaycan adlı müdrik, yenilməz, cəsur, Vətəni, torpağı üçün canından keçən bir xalqa aiddir. Və bu xalq öz torpağının bir qarışını belə, heç kimə güzəştə getməyəcək. Qələbə bizimdir!

***– Müsahibə üçün sağ olun!***

✍ **Telli MƏMMƏDOVA**

## Dövlət proqramı icra olunur

# Turizm potensialından istifadə diqqət mərkəzindədir



*Bu gün Azərbaycanda ən çox inkişaf edən sahələrdən biri də turizmdir. Respublikamıza xarici vətəndaşların cəlb edilməsi ilə yanaşı, həm də bölgələrdə məşğulluğun artması, yeni iş yerlərinin açılması baxımından böyük əhəmiyyətə malik olan turizm uzun illərdir ki, dövlət siyasətinin prioritet məsələlərindən birinə çevrilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Turizm sahəsi həm regionların inkişafı, həm də ki, ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir".***

Muxtar respublikamızın nadir təbii, mədəni obyektlər kompleksinə malik olması bu qədim diyarda turizmin inkişafı üçün yeni perspektivlər açır. Əlverişli iqlim şəraiti, flora və faunanın müxtəlifliyi, tarixi-mədəni irs, yüksək qonaqpərvərlik ənənələri Naxçıvanda zəngin turizm potensialının mövcudluğundan xəbər verir. Bu potensialdan istifadə sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər muxtar respublikada turizmin iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilməsini təmin etmək məqsədi daşıyır. Həmin məqsədə nail olmaq üçün irimiqyaslı infrastruktur layihələri icra edilir, mədəniyyət obyektlərinin əsaslı təmir olunması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası görülən işlərin davamlı xarakter almasına təkan verməkdədir.

Proqramda muxtar respublikaya turistlərin cəlb edilməsi istiqamətində bir sıra tədbirlər nəzərdə tutulmuşdur. Bu məqsədlə internet resurslarından səmərəli istifadə olunması isə müasir dövrün mühüm qanunauyğunluqlarından biri hesab edilir. Qısa zaman kəsiyində bol informasiyanın yayılması və təsirediciliyinin çox olması internet ehtiyatlarından məqsədəuyğun istifadəni indiki dövrün zərurətlərindən birinə çevirmişdir. Bu istiqamətdə muxtar respublikanın turizm potensialını nümayiş etdirən məlumatların sosial şəbəkələrdə yerləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Dövlət proqramının icrasına uyğun olaraq iyul-sentyabr aylarında turizmlə bağlı məlumatların internetdə yerləşdirilməsi və onların daim yenilənməsinin təmin edilməsi diqqət mərkəzində olmuşdur. Naxçıvan Turizm İnformasiya Mərkəzinin sosial şəbəkələrdəki səhifələrinə 200-dən çox məlumat daxil edilmiş, 70 mindən çox baxış sayı qeydə alınmışdır. Turistlərin məlumatlılığının artırılması məqsədilə mərkəzin elektron poçt ünvanına və sosial şəbəkə hesablarına daxil olan 31 müraciət aidiyyəti üzrə cavablandırılmışdır. Xarici ölkələrdə və Azərbaycan Respublikasında fəaliyyət göstərən turoperatorlara, eləcə də mehmanxanaların elektron poçt ünvanlarına, bölgələrdə fəaliyyət göstərən turizm informasiya mərkəzlərinə 2 mindən çox məlumat göndərilmişdir. Həmçinin bu dövrdə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin yeni internet səhifələrinin hazırlanması istiqamətində iş aparılmışdır. Qeyd olunanlarla yanaşı, kütləvi informasiya vasitələrinin imkanlarından istifadə də diqqətdə saxlanılmışdır. Belə ki, iyul-sentyabr aylarında muxtar respublikanın turizm imkanları barədə kütləvi informasiya vasitələrinə 3 məlumatlandırıcı müsahibə verilmiş, 2 televiziya və 2 radio verilişində iştirak edilmişdir.



Dünya təcrübəsində turizm sektorunun inkişafını şərtləndirən bir sıra mühüm amillər vardır. Turizm zonaları, müvafiq turlar, xidmət yerləri və bir çox səhələrdə turist seçimləri müxtəliflik göstərsə də, nəqliyyat imkanlarının əlçatanlığı, bu mənada, ümumi tələb hesab oluna bilər.

Muxtar respublikanın ixtisaslaşmış turizm məkanına çevrilməsini sürətləndirəcək tədbirlərin əhatə olunduğu Dövlət proqramında turistlərə xidmət göstərən nəqliyyat vasitələrinin təklif etdiyi xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Bu məqsədlə üçüncü rübdə Naxçıvanda elektron taksi xidməti fəaliyyətə başlamışdır. Mobil operatorlardan 288 qısa nömrəsinə zəng etməklə sifariş olunan və vahid mərkəzdən idarə edilən xidmətin üstünlüyü sifarişçiyə ən yaxın məsafədən mənzil başına çatmağa zəmanət verməsidir. Yeni fəaliyyətə başlayan xidmət muxtar respublikamıza səfər etmək istəyən turistlər üçün rahatlıq və əminlik vəd etməkdədir.

Turizm imkanlarının əhatəli nümayiş etdirilməsində reklam-informasiya vasitələri xüsusi rol oynayır. Bu istiqamətdə reklamın əsas məqsədi muxtar respublikanın əlverişli imicini yaratmaq, potensial istehlakçını öz səyahəti üçün bu məkanı seçməyə sövq etməkdir. Üçüncü rübdə turizmlə bağlı reklam-informasiya materiallarının tərtib olunması diqqətdə saxlanılmış, Naxçıvan şəhərində Sahil Parkı üçün buklet hazırlanmışdır. Eyni zamanda "Naxçıvan Muxtar Respublikasının Bələdçi kitabı"nın hazırlanması davam etdirilmişdir.

Muxtar respublikamızın zəngin mədəni irsi, qədim tarixi mühüm tədqiqat predmeti kimi daim diqqəti cəlb etmişdir. Aparılan araşdırmaların nəticələri isə mövcud turizm potensialının elmi cəhətdən təşviqi üçün mənbə rolunda çıxış etməkdədir. Üçüncü rübdə Dövlət proqramının icrası məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərəfindən muxtar respublikada turizmin inkişafı və perspektivləri, eləcə də turizm marşrutları üzrə bir neçə abidənin daxil edildiyi 3 monoqrafiya nəşr olunmuşdur.

İyul-sentyabr aylarında Naxçıvanın özünəməxsus dəyərlərinin və məhsullarının, o cümlədən sənətkarlıq nümunələrinin təşviqi də diqqətdə saxlanılmış, "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi tərəfindən milli mətbəx nümunələrinin təbliğ edildiyi 2 televiziya verilişinin hazırlanmasında iştirak edilmişdir. Mərkəzin "Youtube" kanalında eyni məqsədlə 4 videoçarx yerləşdirilmişdir. Üçüncü rübdə Naxçıvanı tanıdan 88 suvenir və hədiyyəlik xatirə əşyası hazırlanaraq Naxçıvan Biznes Mərkəzinin satış obyektlərinə göndərilmiş, 27-nin satışı həyata keçirilmişdir.

Dövlət proqramında kənd turizminin inkişaf etdirilməsi ilə bağlı müəyyən edilmiş tədbirlər muxtar respublikada davamlı turizm potensialının gücləndirilməsinə hesablanmışdır. Çünki kənd turizminin digər turizm növləri ilə asanlıqla inteqrasiya oluna bilmə qabiliyyəti həmin növlərin də inkişafına və cəlbediciliyinin artmasına şərait yaradır. Naxçıvanda bu sahədə dünya standartlarına cavab verən turizm obyektlərinin inşasına mühüm önəm verilir. Bu baxımdan Ağbulaq turist kəndinin yaradılması ilə bağlı görülən işlər xüsusilə qeyd edilməlidir. Bütün bunlarla yanaşı, kənd turizm obyektlərinin yaşayış məntəqələrinə kifayət qədər yaxın yerləşməsi və təbii ehtiyatlardan istifadə imkanlarının geniş olması bu sahənin dünya miqyasında önəmini artırmaqdadır. Muxtar respublikamızda üçüncü rübdə kənd turizminin inkişafı məqsədilə Şərur, Şahbuz, Ordubad və Culfa rayonlarında ekoturizm baxımından əhəmiyyətli obyektlərin, kirayə evlərin və həyətyanı sahələrin aşkar olunması istiqamətində iş aparılmış, 26 yararlı kənd evi müəyyən edilmişdir.



Turizm sektoru bir tərəfdən hər bir ölkə üçün mühüm gəlir mənbəyi, digər tərəfdən isə məşğulluğun təmin olunmasında önəmli rol oynayan faktorlardandır. Bu sahədə peşəkar kadrların yetişdirilməsi muxtar respublikada turizmin gələcək inkişafının təməlini formalaşdırır. Üçüncü rübdə Naxçıvan Şəhər Peşə Liseyində Turizm agenti ixtisası üzrə peşə kursları davam etdirilmişdir. Liseydə bu ixtisas üzrə peşə təhsilini başa vurmuş 9 müdavim sertifikatla təmin olunmuşdur.

Onu da qeyd etmək lazımdır ki, turizm sahəsi öz nümayəndələrindən müasir tələblərə uyğun peşəkarlıq tələb etməklə daim yenilənən və təkmilləşən cəhətlərə malikdir. Bu sektorun nümayəndələrinin yeni tələblərə uyğun maarifləndirilməsi və onlarla işin beynəlxalq standartlar çərçivəsində qurulması xüsusi diqqət tələb edən məsələdir. Üçüncü rübdə Dövlət proqramının icrasına uyğun olaraq turizm sektorunun nümayəndələri üçün onlayn qaydada "Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında mehmanxanaların fəaliyyətinin təşkili Qaydalarının tətbiqi" mövzusunda seminar, "Naxçıvan Muxtar Respublikasında daxili turizmin inkişaf perspektivləri" adlı konfrans keçirilmişdir.

Dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrası əlverişli mühit formalaşdırmaqla muxtar respublikamızı diqqəti cəlb edən turizm məkanına çevirməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Hər bir ölkənin həyatında turizm xüsusi yer tutur. Müasir dövrdə ölkələr turizmin inkişafında, daha çox turist cəlb etməklə ümumi inkişafın təmin olunmasında maraqlıdırlar. Naxçıvan Muxtar Respublikasında da turizmin inkişafı diqqət mərkəzindədir. Tarixi və dini turizmin, ekoturizmin, dağ turizminin, mədəni və sağlamlıq turizminin inkişafı sahəsində mühüm işlər görülmüşdür. Artıq Naxçıvan həm də turizm mərkəzinə çevrilmişdir..."***

**"Şərq qapısı"**

# Vətənpərvərlik ideyalarının təbliğinə böyük önəm verilir

*Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası 2020-ci ilin oktyabr ayında da muxtar respublikada fəaliyyət göstərən teleradioların fəaliyyətini izləmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, təsdiq olunmuş Dövlət proqramları və Tədbirlər planlarından irəli gələn vəzifələrin teleradiolarda icrasını diqqətdə saxlamışdır. Qeyd etmək lazımdır ki, oktyabr ayında teleradioların proqramlarında dəyişiklik olmuş, vətənpərvərlik mövzusunda materiallara üstünlük verilmişdir.*

Bəhs edilən dövrdə Naxçıvan Dövlət Televiziyasının "Xəbərlər" redaksiyası mütəmadi olaraq hər saat xüsusi buraxılışlar vasitəsilə müzəffər Azərbaycan Ordusunun apardığı əks-hücum əməliyyatlarında əldə edilən uğurlar barədə tamaşaçılara dolğun məlumatlar vermişdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin xalqa müraciətləri, o cümlədən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Xarici İşlər Nazirliyinin və digər əlaqədar qurumların nümayəndələrinin iştirakı ilə keçirilən brifinqlər efirdən birbaşa yayımlanmış, cəbhədə ordumuzun keçirdiyi hərbi əməliyyat tədbirlərinin nəticələri altyazı ilə tamaşaçılara təqdim olunmuşdur.

Oktyabr ayında verilişlərin növbəti 86 sayı efirə təqdim edilmişdir. Redaksiyaların fəaliyyətinin təhlili onu göstərir ki, oktyabr ayında "İctimai-siyasi verilişlər", "Təhsil və sosial məsələlər", "İncəsənət və musiqi verilişləri", "Müəllif proqramları və xüsusi layihələr", "Ədəbi-bədii verilişlər" redaksiyaları vətənpərvərlik mövzusunda fəallıq nümayiş etdirmiş, "Uşaq, gənclər və idman" redaksiyası isə bu istiqamətdə passivlik göstərmiş, yalnız oktyabrın 17-də yayımlanan "Gəncliyin səsi" verilişində vətənpərvərlik mövzusuna toxunulmuşdur.

Televiziyanın bəzi materiallarında nöqsanlar müşahidə edilmiş, həmin nöqsanlar şurada müzakirə olunaraq televiziyanın məsul şəxslərinə təqdim edilmişdir.

Naxçıvan Dövlət Radiosu oktyabr ayında 580 saat efirdə olmuşdur. Radioda ay ərzində təqdim edilən verilişlər, canlı proqramlar vətənpərvərlik mövzularına həsr edilmiş, efirə təqdim edilən konsert proqramları və radiokompozisiyalar hərbi-vətənpərvərlik profilli olması ilə seçilmişdir. Proqramdankənar xüsusi xəbər buraxılışları efirə yayımlanmış, cəbhədəki son vəziyyətlə bağlı məlumatlar operativ şəkildə dinləyicilərə çatdırılmışdır. Həmçinin ölkə rəhbərinin xalqa müraciətləri, keçirilən brifinqlər də radio efirində təqdim edilmişdir."Günə başlarkən" musiqili-informasiya proqramı həftəiçi 5 günlük yayımdan 7 günlük yayıma keçmiş, məlumatların operativ və dəqiq çatdırılmasında, hərbi-vətənpərvərlik profilli musiqilərin təqdim edilməsində xüsusilə fərqlənmişdir.

Televiziya və Radio Şurası "Kanal 35" televiziyasının oktyabr ayında da efir fəaliyyətini də diqqətdə saxlamışdır. Ötən ay televiziyanın proqram siyasətinə dəyişikliklər edilmiş, günlə səsləşən vətənpərvərlik ruhunda hazırlanmış telematerialların yayım cədvəlinin əsasını təşkil etmişdir. Televiziya istər efirdə, istərsə də sosial şəbəkə profillərində operativ məlumatları Naxçıvan tamaşaçısına və ictimaiyyətinə çatdırmışdır. Bununla yanaşı, azad edilən ərazilər videoçarxlar vasitəsilə tamaşaçılara təqdim edilmişdir. Qeyd edək ki, bu mövzuda 63 material təqdim olunmuşdur.

"Naxçıvanın səsi" radiosu oktyabr ayında 248 saat efirdə olmuşdur. Efir müddətində 110 saat canlı yayım proqramları və verilişləri hazırlanaraq dinləyicilərə təqdim edilmişdir. Həmin proqramlarda tanınmış ziyalılar, deputatlar, musiqiçilərlə telefon bağlantısı qurulmuş, həmçinin onların studiyanın qonağı qismində iştirakı təmin edilmişdir.

Oktyabr ayında radionun keçidləri yenidən işlənmiş, təqdim olunan musiqi proqramları üçün xüsusi musiqilər seçilmiş, vətənpərvərlik mövzularının çoxluq təşkil etməsinə xüsusi önəm verilmişdir. Eyni zamanda bir çox vətənpərvərlik mövzusunda çəkilmiş filmlərdən audiofraqmentlər səsləndirilmişdir.

Televiziya və Radio Şurasının 2020-ci il Tədbirlər Planına əsasən oktyabr ayında da Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin teleradiolarda fəaliyyəti mütəmadi olaraq izlənilmiş, aylıq hesabat hazırlanmışdır.

Bəhs edilən dövrdə şura sosial şəbəkələrdə Naxçıvanla bağlı 200-dək foto və video, həmçinin xəbər paylaşmışdır. Oktyabr ayında şuranın "Telegram" kanalı yaradılmış, kanal vasitəsilə ölkədə və dünyada baş verən hadisələr izləyicilərə çatdırılmışdır. Bundan başqa, şuranın "Instagram" sosial şəbəkəsindəki səhifəsində vətənpərvərlik mövzusunda onlarla foto və video paylaşılmış, həmin materiallara minlərlə baxış olmuşdur.

Hesabat dövründə şura tərəfindən 120 xəbər, 1 analitik material, 52 müsahibə hazırlanaraq mərkəzi mətbuatda yayımlanması təmin edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 6 noyabr-7 dekabr 2020-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında (www.dqmk.nmr.az) "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 70 manat ödəniş məbləğini "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $09^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Müsabiqədə yaşı 30-dək olan magistr təhsilini başa vurmuş və ya magistraturanın ikinci kursunda təhsil alan şəxslərin iştirakı məqsədəuyğundur.

Həqiqi hərbi xidmət keçməmiş şəxslər (qadınlar və səhhəti ilə əlaqədar möhlət hüququ olanlar istisna olmaqla) müsabiqəyə buraxılmır.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya gəlməklə müraciət edə bilərlər.

***Maraqlananlar komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya dqmk@nakhchivan.az elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.***

| Vəzifə kodu | Struktur bölmə | Ştat sayı | Vəzifə |
|---|---|---|---|
| | **1. Bölmənin Aparatı** | | |
| 510001 | Beynəlxalq əlaqələr və informasiya şöbəsi | 1 | şöbə müdiri |
| 510002 | Beynəlxalq əlaqələr və informasiya şöbəsi | 1 | redaktor |
| | **Cəmi:** | **2** | |
| | **2. Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu** | | |
| 511004 | Qədim və orta əsrlər tarixi şöbəsi | 1 | böyük laborant |
| 511014 | Yeni və ən yeni tarix şöbəsi | 1 | böyük laborant |
| 511024 | Etnoqrafiya şöbəsi | 1 | böyük laborant |
| 511034 | Qafqaz tarixi şöbəsi | 1 | böyük laborant |
| | **Cəmi:** | **4** | |
| | **3. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu** | | |
| 512004 | Musiqi və teatr şöbəsi | 1 | böyük laborant |
| | **Cəmi:** | **1** | |
| | **4. Bioresurslar İnstitutu** | | |
| 513004 | Dənli, paxlalı və texniki bitkilər laboratoriyası | 1 | böyük laborant |
| 513014 | Meyvə, tərəvəz və üzümçülük laboratoriyası | 1 | böyük laborant |
| 513024 | Nəbatat şöbəsi | 1 | böyük laborant |
| 513034 | Bitki sistematikası şöbəsi | 1 | böyük laborant |
| 513044 | Biokimyəvi tədqiqatlar laboratoriyası | 1 | böyük laborant |
| 513054 | İnnovasiya və elm-istehsalat şöbəsi | 1 | böyük laborant |
| 513055 | İnnovasiya və elm-istehsalat şöbəsi | 1 | mütəxəssis |
| 513056 | İnnovasiya və elm-istehsalat şöbəsi | 1 | texnoloq |
| | **Cəmi:** | **8** | |
| | **5. Təbii Ehtiyatlar İnstitutu** | | |
| 514004 | Fiziki tədqiqatlar laboratoriyası | 1 | böyük laborant |
| 514014 | Hidrogeologiya və mineral sular laboratoriyası | 1 | böyük laborant |
| 514024 | Coğrafiya şöbəsi | 1 | böyük laborant |
| 514034 | İqtisadiyyat şöbəsi | 1 | böyük laborant |
| | **Cəmi:** | **4** | |
| | **6. Batabat Astrofizika Rəsədxanası** | | |
| 515004 | Səma cisimlərinin mövqe müşahidələri şöbəsi | 1 | böyük laborant |
| | **Cəmi:** | **1** | |
| | **7. Əlyazmalar Fondu** | | |
| 516004 | Əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri şöbəsi | 1 | böyük laborant |
| 516014 | Əlyazmaların mühafizəsi, gigiyenası və bərpası laboratoriyası | 1 | böyük laborant |
| | **Cəmi:** | **2** | |
| | **8. Bölmənin Nəşriyyatı** | | |
| 517001 | Nəşriyyat | 1 | direktor |
| | **Cəmi:** | **1** | |
| | **Yekun:** | **23** | |

## Valideyn nümunəsi tərbiyədə başlıca amildir

*Ailə çox mühüm sosiallaşma amili, tərbiyənin subyekti, uşağın özünüinkişafı, özünütəsdiqidir. Uşaq məhz ailədə ilk dəfə olaraq sosial qarşılıqlı əlaqədə olur, özü üçün insani münasibətlər aləmi açır, özünütərbiyə subyektinə çevrilir. Bu zaman ailə, həmçinin uşağın şəxsiyyət kimi inkişafı prosesində neqativ, mənfi təsirlər də göstərə bilir ki, buna səbəb ailədaxili konfliktlər, ailənin maddi vəziyyəti, güc və zorakılığın tətbiqi, uşağın inkişafına psixi travmaların təsiri, nəhayət, uşağın tərbiyəsinə valideynlərin mənfi münasibətləridir.*

Sağlam ailə atmosferinin yaradılması o deməkdir ki, valideynlər uşaqların tərbiyəsi üzrə öz borc və məsuliyyət hissini dərk etsin, ata və ana arasında münasibətlər qarşılıqlı hörmətə əsaslansın, uşaqlar ailə təsərrüfatının həlli məsələlərinə cəlb edilsin, istirahət, idman, turizm, birgə gəzintilər ağıllı, əlverişli və münasib şəkildə təşkil olunsun. Ailə birlikdə musiqi dinləmə, kitab mütaliəsi ilə məşğul olsun, incəsənət və mədəniyyət tədbirlərinə, teatr və kinoya getsin və sair. Bütün bunların həyata keçirilməsi, müsbət həlli isə valideynlərin, ailənin yaşlı üzvlərinin biliyi, bacarığı və rəhbərlik üslubunun səviyyəsindən asılıdır.

Valideyn uşağın həyatında, ictimai aləmə, cəmiyyətə qoşulmasında mühüm rol oynayır. Onun şəxsi keyfiyyətləri ailədə uşağın həyatına çox güclü təsir göstərən bir vasitədir. Təsadüfi deyil ki, biz həyatımızın çətin anlarında valideynlərimizi anır, onları düşünür, onlara müraciət edirik. Ətrafdakı insanlara, hadisələrə baxışlarımız, hiss və duyğularımız elə hisslər, duyğular və münasibətlərdir ki, onu digər emosional vəziyyətlərlə müqayisə etmək mümkün deyil. Valideyn və uşaqlar arasındakı doğma, spesifik hisslər belə bir başlıca cəhəti müəyyənləşdirməyə imkan verir ki, əgər uşaqlar valideynlərinin fikrini, davranış tərzini özü üçün etalon, əsaslı nümunə kimi qəbul edirsə, valideynlər də uşağın həyatını qurmağı, ona həmişə qayğılı münasibət göstərməyi bacarmalıdırlar.

Valideyn nümunəsi və avtoriteti (nüfuzu) sosial varisliyin mühüm mexanizmi kimi yaşlı nəslin yetişən nəslə mənəvi-əxlaqi təcrübəsinin ötürülməsidir. Valideyn nümunəsi sosial təcrübənin spesifik formasıdır. Ata və ana uşağın gözündə bu avtoriteti qoruyub saxlamalıdır.

Ailədə uşağın yüksək mənəvi-əxlaqi tərbiyəsində ata və ananın nümunəsi avtoritet olmalıdır. Valideynin həqiqi nüfuzu o zaman yaranır ki, o həm də siyasi və vətəndaşlıq keyfiyyətlərinə malik olsun. Uşaq bilməlidir ki, onun valideynlərindən hər ikisi, yaxud hər hansı biri ictimai fəaliyyəti, görüşləri ilə fərqlənir. Bu zaman uşaq valideynlərinin uğurları ilə fəxr edir.

Valideynin işini layiqincə həyata keçirmək üçün avtoritet ilk özül, bünövrədir. Bu özülü doğru məcraya, müsbət məzmun istiqamətinə yönləndirmək üçün valideynlərin yüksək pedaqoji mədəniyyətə, uşaq tərbiyəsi işində bilik və bacarıqlara yiyələnməsi vacibdir. Bu, ümummədəniyyət bazası və xüsusi hazırlıq əsasında formalaşır. Məqsədin, vəzifələrin təhlili əsasında, tərbiyənin məzmun, forma və metodlarının empirik modelini yaratmaq ailənin pedaqoji mədəniyyətini ifadə edir.

Valideynlərin pedaqoji mədəniyyətinin yüksəldilməsi üzrə işin məqsədyönlü təşkili üçün pedaqoq-müəllimlərlə ailənin əməkdaşlığına xüsusi önəm vermək lazımdır. Pedaqoqların valideynlərlə qarşılıqlı əlaqələrinin formalaşdırılması təhsil müəssisələrinin sosial siyasətinin prioritet istiqamətini təşkil edir. Təhsil vətəndaşın formalaşmasında əhəmiyyətli rol oynayır. Lakin unutmaq olmaz ki, uşaqlarda əxlaqi dəyərlər, o cümlədən vətəndaşlıq keyfiyyətləri məhz erkən yaşlardan formalaşdırılır, həyat tərzinin ağıllı və bacarıqla qurulmasının istiqamətləri müəyyənləşdirilir. Valideynlər uşaqların tərbiyəsi sahəsində xüsusi biliklərə yiyələnmək, ailədaxili əlaqə və münasibətləri düzgün, yüksək səviyyədə qura bilmək üçün pedaqoqların ümumi səylərindən daha çox yararlanmalıdırlar.

Beləliklə, aydın olur ki, ailə institutunda uşaqların tərbiyəsinin müvəffəqiyyətini təmin etməyin çox mühüm amili kimi valideyn nümunəsi, onun rəhbərlik xüsusiyyəti, avtoriteti çox vacib şərtlərdir. Valideyn nümunəsi hamının qəbul etdiyi əhəmiyyətə və mahiyyətə malik olmaqla təsirli tərbiyə amili və pedaqoji taktdır. Bunun ən bariz nümunəsi isə vaxtilə – təxminən, 30 il bundan əvvəl Vətən torpaqları uğrunda mərdlik və cəsurluqla mübarizə aparan ataların, ürəyi Vətən sevgili, yurd nisgilli anaların yetirdiyi övladların bu gün Azərbaycanın haqq işi uğrunda şərəfli mübarizədə, Vətən müharibəsində ön sıralarda gedərək misligörünməmiş qəhrəmanlıq və şücaət göstərməsidir. Soykökə bağlı, milli mentalitet, milli dəyərlər əsasında tərbiyə olunan bugünkü vətənpərvər nəsil Azərbaycan torpaqlarının düşmən işğalından azad olunması uğrunda öz canınından keçərək tarix yazır. Təbii ki, bu da gələcək nəsillər üçün ideal vətənpərvərlik örnəyi olacaq.

**Solmaz CABBAROVA**
***Naxçıvan Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasının müəllimi***

## Rəsm müsabiqəsi keçirilib



Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Rəngkarlıq və Təsviri incəsənət ixtisasları üzrə tələbələrinin açıq havada rəsm müsabiqəsi keçirilib. Bayraq Meydanında təşkil edilən müsabiqənin əsas məqsədi çəkilən rəsmlər ilə qələbəyə inam, şəhidlərin əziz xatirəsinə ehtiram hisslərini ifadə etmək olub. Fakültə müəllimlərinin rəhbərlik etdiyi müsabiqədə 26 tələbə-rəssam öz istedadını sınayıb. Tələbələrin əksəriyyəti sərgiyə hərbi formada qatılıb. Sonda tələbələr "Qarabağ Azərbaycandır!" şüarını səsləndiriblər.

Qeyd edək ki, əsərlər sərgilənəcək və universitet rəhbərliyi tərəfindən mükafatlandırılacaq.

**Səadət ƏLİYEVA**

### Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin oktyabr ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 863440 | 91276 | 91285 | 100,0 |
| 2. | Kəngərli rayonu | 289101 | 34014 | 34017 | 100,0 |
| 3. | Naxçıvan şəhəri | 1574133 | 193473 | 193490 | 100,0 |
| 4. | Ordubad rayonu | 500275 | 55782 | 55785 | 100,0 |
| 5. | Culfa rayonu | 409878 | 46569 | 46571 | 100,0 |
| 6. | Şahbuz rayonu | 257577 | 30815 | 30816 | 100,0 |
| 7. | Babək rayonu | 929365 | 112336 | 112336 | 100,0 |
| 8. | Sədərək rayonu | 86135 | 9389 | 9389 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 11062301 | 1734073 | 1725980 | 99,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **15972205** | **2307727** | **2299669** | **99,7** |

### İtmişdir

Məmmədov Vüsal Qadir oğlunun adına Naxçıvan Muxtar Respublikası Regional Peşə Tədris Mərkəzi tərəfindən verilmiş qazanxana maşinisti sertifikatı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 831